**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**«Təsdiq edirəm»**
**filologiya fakültəsinin dekanı**
**dos.əvəzi E.H.Məmmədov**
**13 dekabr 2017**

**Ümumi dilçilik kafedrasının**
**elmi-tədqiqat işlərinin yerinə yetirilməsi haqqında**

# H E S A B A T I

**BAKI – 2017**

# 1. GİRİŞ.

Ümumi dilçilik kafedrasının müəllimləri dərs yükü ilə yanaşı hər il elmi-tədqiqat işlərini yerinə yetirirlər. Həmin elmi işlər dilçiliyin aktual problemləri üzrə üçillik plan (2015-2017) şəklində müəllimlər arasında bölünmüşdür. Bölüşdürülmə aşağıdakı strukturu əhatə edir.

# 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ:

1. Rəcəbli Əbülfəz Əjdər oğlu, filologiya elmləri doktoru, professor – 1936-cı ildə anadan olmuşdur
2. Qasımova Şəkər Vəli qızı, filologiya üzrə fəlsəfə doktoru, dosent – 1935-ci ildə anadan olmuşdur
3. Məmmədov Məhəmməd Tofiq oğlu, filologiya üzrə fəlsəfə doktoru, dosent əvəzi – 1957-ci ildə anadan olmuşdur
4. Muradov Cavanşir Xankişi oğlu, filologiya üzrə fəlsəfə doktoru, dosent – 1966-cı ildə anadan omuşdur
5. Mehdiyev Firuz Nadir oğlu, baş müəllim – 1948-ci ildə anadan olmuşdur
6. Həmzəyeva Elmira Hüseynağa qızı, filologiya üzrə fəlsəfə doktoru, baş müəllim (0,5 ştat) – 1959-cu ildə anadan olmuşdur
7. Məmmədova Svetlana Əliyulla qızı, baş müəllim – 1939-cu ildə anadan olmuşdur
8. Əliyeva Cəmilə Musa qızı, baş müəllim – 1946-cı ildə anadan olmuşdur
9. Cəfərov Nizami Qulu oğlu, filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü (0,5 ştat - əvəzçi) – 1959-cu ildə anadan olmuşdur
10. Məmmədova Lətafət Firuddin qızı, filologiya üzrə fəlsəfə doktoru, böyük laborant – 1970-ci ildə anadan olmuşdur

# 3. KAFEDRADA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI, YERİNƏ YETİRİLMƏSİ.

**2017-ci ildə Ümumi dilçilik kafedrasının əməkdaşları «Dillərin təsnifi» adlı ümumi üçillik mövzunun 8 işi – üzərində çalışıblar. İstiqamət: Dil nəzəriyyəsi. Problem: Dilin nəzəri problemləri. Planlaşdırılmış mövzulardan aşağıdakılar yerinə yetirilmişdir:**

İş: «Müqayisəli-tarixi dilçilik»

İcraçı: prof. Ə.Ə.Rəcəbli

Mərhələ III: "Müasir-tarixi dilçiliyin prinsipləri"

Müasir dilçilikdə bir sıra məktəb və cərəyanların əmələ gəlməsinə baxmayaraq müqayisəli-tarix dilçilik hələ də dilçilik elminin əsas budağı kimi öz əhəmiyyətini saxlayır. F.dö Sössürün "Memuarı" nəşr edildikdən. Xüsusən, 1915-ci ildə çex alimi Qroznının hett dilinin şifrəsini açdıqdan sonra müqayisəli-tarixi dilçilik xeyli inkişaf etmiş, onun tədqiqat metodları mükəmməlləşmiş, dəqiqləşmişdir: əvvəllər hind-Avropa dil ümumiliyi bizim eradan əvvəl II minilliyə aid edilirsə, indi bu parçalanma tarixin daha dərinliklərinə aparılır. Yeni - müasir dövrdə hind-Avropa müqayisəli-tarixi dilçiliyinə həsr olunmuş əsərlərdən bunları göstərmək olar:

1. Y.Kuriloviç. Daxili rekonstruksiya metodları haqqında
2. J.J.Makayev. Hind-Avropa areal dilçiliyinin problemləri
3. A.Meye. Hind-Avropa dialektləri
4. V.Q.Portsiq. Hind-Avropa dil sahəsinin parçalanması.

Müasir dövrdə müqayisəli-tarixi dilçilik sahəsində V.Pirzani, B.Terraçini, C.Bonfanter, C.Devito və başqalarının əməyi də qeyd edilməlidir.

İş: «Müqayisəli-tipoloji dilçilik»

Mərhələ III: «Aqlütinativ dillər»

İcraçı: dosent Ş.V.Qasımova

Yalnız bir mənası olan standart sözdətişdirici şəkilçilərin sabit söz kökünə qoşulması kimi qrammatik xüsusiyyətə malik dillərə aqqlütinativ dillər deyilir. Aqqlütinativ dillərdə türk, fin, uqor, monqol, tunqus, mancur, batu, şumer dilləri daxildir.

Bu dillərdə bütün leksik, qrammatik yəni sözdüzəltmə və qrammatik sözdəyişmə əlaqələr şəkilçi morfemlər vasitəsilə realizə olunur. Bu dillərdə kpk və şəkilçi morfemlər öz müstəqilliyini qoruyur. Bu dillərdə bütün söz kökləri sözə bərabər olur və müstəqil leksik vahid kimi lüğətlərdə işlənir. Qeyd olunur ki, bəzi tədris kitablarında kökə verilən tərif düz deyil. Yəni sözün dəyişməyən hissəsinə kök, dəyişən hissəsinə isə şəkilçi deyilir. Bu tərifin əksinə eksperiment aparılsa dəftərin, qələmin, zənbilin sözlərindəki – in hissəsi hər üç sözdə dəyişmədiyi üçün kök, dəftər, qələm və zənbil sözləri isə dəyişiliyi üçün şəkilçidir. Nəticədə başqa dil tipi üçün doğru olan həmin tərif aqqlütinativ dillər kor koranə tətbiq edilmişdir.

Elmi işdə aqqlütinativ dil tipinin bir sıra xüsusiyyətləri, başqa dil tipləri ilə müqayisədə, qarşılaşmada daha bir sıra elmi mülahizələrin aşkarlanmasına səbəb olur.

Aqqlütinativ dillərdə morfemlərin bəzi hallarda dəyişməyə məruz qala bilməsi, bəzən də hallarda isə aqqlütinativ dillərdə sözə, kökə münasibətdə şəkilçilərin çox geniş müstəqilliyə malik olması elmi əsaslarla izah olunur. Bəzi şəkilçilərin başqa dillərdən sözlə birlikdə aqqlütinativ, dillərə keçməsi fikri də düz deyildir.

Elmi işdə aqqlütinativ dillərin fonetik, leksik və leksik-qrammatik, morfoloji xüsusiyyətlər müəyyən qədər təhlil olunur.

İş: «Tipoloji dilçilik»

Mərhələ III: “Dillərin leksikası”

İcraçı: dosent M.T.Məmmədov

“Dillərin leksikası” adlı elmi işdə müxtəlif dillərin leksikası müqayisəli planda öyrənilir, sözlərin struktur xüsusiyyətləri aydınlaşdırılır. Bu əsasda onların tipoloji müqayisəsi aparılır. Ayrı-ayrı dillərdə sözönü şəkilçilərin oxşar və fərqli xüsusiyyətlərinə diqqət yetirilir.

İş: «Müqayisəli-tipoloji dilçilik»

Mərhələ III: «Analitizm və sintetizm»

İcraçı: dosent C.X.Muradov

Dünya dillərində qrammatik mənaların ifadə olunmasında analitik və sintetik vasitələr mühüm rol oynayır. Analaitik quruluşa malik olan dillərdə qrammatika söz sırası və köməkçi sözlərin köməyi ilə ifadə olunur. Sintetik dillərdə sözün formasının

dəyişməsi ilə, müxtəlif prefiks və şəkilçilərin artırılması ilə qrammatik mənalar ifadə olunur. Tədqiqat zamanı aşkar olunmuşdur ki, mütləq analitik və sintetik dillər yoxdur. Belə ki, rus dili sintetik dil olsa da bu dildə bir çox köməkçi söz – bağlayıcılar, önlüklər, ədatlar istifadə olunur, intonasiya qrammatik rola malikdir. Əks tendensiyanı analitik dillərdə müşahidə etmək olar.

İş: «Müqayisəli-tipoloji dilçilik»

Mərhələ III: «Kvantitativ tipologiya»

İcraçı: baş müəllim F.N.Mehdiyev

Dilin və nitqin kəmiyyət anlayışı müasir dilçilik tədqiqatlarından olub müxtəlif terminlərlə ifadə olunur. Buraya riyazi dilçilik, kvantitativ dilçilik, nitqin sintaksisi, dilçilik statistikası daxildir. Baxmayarzq ki, bu işlənən terminlərdə müəyyən qədər uyarlıq, oxşarlıq mövcuddur, ancaq bunlar arasında nəzəri, diqqəti cəlb edən fərqlər də vardır. Qeyd etmək lazımdır ki, burada məsələ nitqin (mətnin) tədqiqindən gedən zaman kvantitativ dilçilikdən danışılmalıdır.

İş: "Müqayisəli-tarixi dilçilik

Mərhələ III: "Müasir müqayisəli-tarixi dilçilik"

İcraçı: Fil.f.d., baş müəllim E.H.Həmzəyeva

Müqayisəli-tarixi dilçilik (komprativistika) dilçiliyin sahələrindən olib bir ulu dildən törəyən qohum dillərin tədqiqi ilə məşğul olur. Müqayisəli-tarixi dilçilik dillər arasında qohumluq dərəcəsinin hansı səviyyədə olmasını, dillərin geneoloji təsnifatını, dillərin diaxron, tarixi inkişafını araşdırmaqla ulu dilin bərpasını, dil ailə və qruplarını, sözlərin etimologiyasını və s. tədqiq edir. Müqayisəli-tarixi metodun yaranmasına avropalıların hind dili olan sanskritlə tanışlığı səbəb olmuşdur. Sanskritin öyrənilməsinin və digər Avropa dilləri ilə müqayisə edilməsinin sonrakı mərhələsi XIX əsrdə davam etdirilir. Dilçilikdə bir çox cərəyanların meydana gəlməsinə baxmayaraq, müqayisəli-tarixi dilçilik müasır dövrdə də öz aktuallığını itirməmişdir. Elmi-tədqiqat işi müasir müqayisəli-tarixi dilçiliyi aktuallaşdıran, onun inkişafına təsir göstərən amillərə həsr olunub.

İş: "Müqayisəli-tarixi dilçilik"

Mərhələ III: "İspan dilinin formalaşması"

İcraçı: baş müəllim S.Ə.Məmmədova

İspaniyanın və onun tərkibinə daxil olan, Aralıq dənizində yerləşən Balear adalarının və eləcə də Atlantik okeanında yerləşən Kanar adalarının rəsmi dilidir. Dil Kastiliya dili adlanır. İspaniyanın əhalisinin 75% ispanlar, qalan 25 % isə katalonlar, qalisiyalılar və basklardır. İspan dili 19 Latın Amerikası dövlətinin dilidir: Argentina, Boliviya, Kolumbiya, Kuba, salvador, Uruqvay, Çili, Meksika və s. Bu dövlətlərdən ən çox ispan dilində danışan Meksikadır. Latın Amerikasında, İspaniyada və Kubada işlənən İspan dilində müəyyən fonetik və qrammatik fərqlər var. İspan dili və fransız dili Ekvatorial Qvineyanın rəsmi dilidir. İspan dilində 400 milyondan çox adam danışır. İspan dili BMT-nin rəsmi və daimi işlədilən dillərdən biridir.

İş: Müqayisəli-tarixi dilçilik

Mərhələ III: "Fransız dilinin formalaşması"

İcraçı: baş müəllim C.M.Əliyeva

Fransız dilinin formalaşması əsasən 3 əsri əhatə edir: XVI, XVII, XVIII. XVI əsrə qədər olan dövr əsasən latın dili ilə əlaqədardır. XVI əsrdən başlayaraq fransız dilinin sərbəst işlədilməsi, latın dilindən ayrılması məsələləri ortaya çıxır. Elmi işdə frnasız dilinin ilkin dövrü və əsasən XVI əsrdə onun formalaşması qrammatikada, fonetikada və leksikada baş verən güclü dəyişikliklər, maraqlı faktlar, müxtəlif dilçi alimlərin tədqiqatları, fərziyyələri öyrənilir. Milli dilin formalaşması faktlarla izah olunur. Yeni (müasir) fransız dili haqqında məlumat verilir.

## 4. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI.

**Kitablar:**

**Prof. Ə.Ə.Rəcəbli:**

"Müqayisəli-tarixi dilçilik". Bakı, "Elm və Təhsil", 2017, 332 s.

**Dosent M.T.Məmmədov:**

Dilçiliyə giriş. Bakı: Ləman nəşriyyat poliqrafiya MMC, 2017, 266 s.

**Fil.f.d., baş müəllim E.H.Həmzəyeva:**

Azərbaycan dili. Dərs vəsaiti. ADPU-nun nəşriyyatı. 2017, 83 s.

**Nigar Əliyeva:**

Professor Ə.Ə.Rəcəbli və Azərbaycan nəzəri dilçiliyi. Bakı:"Elm və Təhsil",2017,104 s. Redaktor dos. əvəzi M.T.Məmmədov

**Telli Səlimli:**

Professor Ə.Z.Abdullayev və Azərbaycan nəzəri dilçiliyi. Bakı:"Elm və Təhsil",2017,105 s. Redaktor prof. Ə.Ə.Rəcəbli

**Məqalələr:**

**Dosent M.T.Məmmədov:**

Böyük alim, böyük müəllim, böyük insan.//Ulduz ömürlü insan.Bakı:BDU nəşri,2017,201-205

**Dosent Ş.V.Qasımova:**

A.Şlayxer dilin forması və inkişafı haqqında. // "Dil və Ədəbiyyat", №2 (102), Bakı, 2017, s .459-462

**Dosent C.X.Muradov:**

Kompüter terminlərinin yaranma yolları. // "Filologiya məsələləri". Bakı, 2017, №8, s.27-34

**Fil.f.d., baş müəllim E.H.Həmzəyeva:**

1.Ü.Hacıbəyov və milli dil. / Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzüsünda Respublika elmi konfransı. Bakı, 17-18 may 2017,s.268-271.

2. Ü.Hacıbəyov və milli təhsil./ Böyük Azərbaycan şairi M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş "M.P.Vaqif və müasirlik" mövzusunda Respublika elmi-praktik konfransının materialları. 7 dekabr 2017, s.471-473

3. M.Abdullayeva. "Klassik poeziya: ezoterik xəzinə"./ Böyük Azərbaycan şairi M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş "M.P.Vaqif və müasirlik" mövzusunda Respublika elmi-praktik konfransının materialları. 7 dekabr 2017, s.473-475

**Baş müəllim F.N.Mehdiyev:**

Morfoloji tipologiyanın inkişaf mərhələləri. // "Dil və Ədəbiyyat", №1 (101), Bakı, 2017, s .136-141

**Baş müəllim S.Ə.Məmmədova:**

Лексикология этрусского языка. //"Dil və Ədəbiyyat", №2 (102), Bakı, 2017, s.82-85

**Baş müəllim C.M.Əliyeva:**

Latın dilinin dövrü etapları. //"Dil və Ədəbiyyat", №4 (104), Bakı, 2017

**5. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ:**

5.1. Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu ilə əlaqələr

5.2. Respublika daxili qrantlar:

Hesabat dövrü ərzində kafedranın dosenti C.X.Muradova "50+50" proqramı çərçivəsində "Kompüter terminologiyası" mövzusunda layihəyə gör qrant ayrılmışdır.

1.3. Beynəlxalq qrantlar.

**6. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR**

Kafedra müəllimləri AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu ilə mütəmaddi əməkdaşlıq edirlər. Ümumən AMEA-nın respublika səviyyəli tədbirlərinə dəvət olunurlar. Kafedranın bütün müəllimləri Nəsimi adına Dilçilik İnstitutunun elmi məcmuəsində və keçirdiyi konfranslarında məruzələrlə çıxış edir, məqalələr çap etdirirlər.

**7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR.**

7.1.Elmi-texniki əməkdaşlıq – yoxdur;

7.2. Beynəlxalq konfranslarda, konqreslərdə və simpoziumlarda iştirak - yoxdur;

7.3 Beynəlxalq proqramlar üzrə təkliflər – yoxdur;

7.4. Xaricdə çap edilmiş məqalələr:

**Fil.f.d., b/m E.H.Həmzəyeva:**

1. Türk qrameri. B.Çobanzadə və F.Ağazadənin "Türk Qrameri"nin əsas xüsusiyyətləri. // Tidsad. Türk İslam Dünyası Sosyal Araştırmalar Dergisi.Yıl 4, Say 15, aralık 2017, s.1-6

7.5. İmpakt-faktoru jurnallarda dərc olunan məqalələr haqqında məlumat – yoxdur.

**8. ELMİ-TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ**

8.1. Dövlət və özəl strukturlarda tətbiq olunmuş elmi nəticələr:

Kafedranın müəllimlərinin yazıb çap etirdiyi dərslik, dərs vəsaiti və proqramlardan başqa ali məktəblərdə istifadə olunur. O cümlədən prof. Ə.Ə.Rəcəblinin 2017-ci ildə çapdan çıxmış "Müqayisəli-tarixi dilçilik" monoqrafiyasından və digər dövlət və özəl ali məktəblərin müəllimləri yaralanırlar. Prof. Ə.Ə.Rəcəbli fakültədə çap olunan beynəlxalq "Dil və ədəbiyyat" juurnalının redaksiya heyətinin üzvüdür.

8.2. Təhsildə elmi-tədqiqat işlərinin nəticələrinin və informasiya texnologiyasının tətbiqi. Elmi-tədqiqat işlərinin səmərəliliyi:

Elmi-tədqiqat işlərinin nəticələrindən isə magistratura bölməsində mühazirə mətnləri və dərs vəsaitləri kimi istifadə olunur.

8.3. İstehsalatda tətbiq üçün hazır olan texnologiyalar haqqında məlumat – yoxdur.

9. **PATENT VƏ İNFORMASİYA İŞLƏRİ –** yoxdur.

**10. DÖVLƏT PROQRAMLARININ İCRASI:**

10.1 «Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası;

10.2 «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»

10.3 «Azərbaycan Respublikasında sənayesinin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı»

10.4 «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı»:

Bakı Dövlət Universitetində Azərbaycan dilinin tətbiqinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramına uyğun olaraq tədris edilən "Azərbaycan dili və nitq mədəniyyəti" fənninin öyrənilməsində kafedranın müəllimlərinin müəyyən rolu vardır. Belə ki, kafedrada çalışan baş müəllim S.Ə.Məmmədova bu fənnin tədrisi ilə məşğul olur.

**11. FAKÜLTƏDƏ KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI**

2017-cı ildə filologiya fakültəsində bir neçə konfrans keçirilmişdir. Belə ki, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə bağlı keçirilmiş respublika konfansında kafedranın müəllimləri məruzəçi olmuşlar. Kafedra müdiri prof. Ə.Ə.Rəcəbli M.P.Vaqifin 300 illik yubileyi münasibətilə keçirilən konfransın rəyasət heyətinin üzvü olmuşdur.

**12. FAKÜLTƏDƏ ELMİ VƏ ELMİ-PEDAQOJİ KADRLARIN HAZIRLANMASI**

Kafedra elmi və elmi-pedaqoji kadrların hazırlanmasında fəal iştirak edir. 2 nəfər: Səlimli Telli Yaşar qızı "Professor Ə.Abdullayev və Azərbaycan nəzəri dilçiliyi" və Əliyeva Nigar Nazim qızı "Professor Ə.Rəcəbli və Azərbaycan nəzəri dilçiliyi" mövzularında müdafiə edib magistr dərəcəsinə layiq görülmüşlər. Magistrlərin tədqiqatları kitab şəklində çap edilmişlər.

2017-cildə kafedranın dissertantı – Səbinə Vilayət qızı İsmayılovanın "Azərbaycan və ingilis dillərində feilin təsriflənməyən formaları" mövzusunda, Nigar Vaqif qızı Seyidovanın "Frazeoloji birləşmələrin tərcümə problemləri" mövzusunda, Pərvanə İsmayıl qızı Paşayevanın "İngilis dilində dini-mifoloji leksikanın Azərbaycan dilinə tərcüməsi problemləri (ingilis dilinin materialları üzrə)" mövzusunda, Mətanət Xıdır qızı Əliyevanın "Məchulluq sahəsi və onun müxtəlifsistemli dillərdə ifadə vasitələri" mövzusunda, İlham Baxış oğlu Əliyevin "İngilis və Azərbaycan dillərində saytərkibli söz birləşmələri mövzusunda, Anar Tofiq oğlu Fərəcovun "Dilin sosial diffensiallaşması" mövzusunda fəlsəfə doktoru müzakirə edilərək müdafiəyə buraxılmışdır. Hesabat ili ərzində dosent Məmmədov Məhəmməd Tofiq oğlu Zeynəb

Nadir qızı Abdullayevanın "Müxtəlifsistemli dillərdə feili söz birləşmələrinin struktur-semantik təhlili" mövzusunda yazdığı filologiya üzrə fəlsəfə doktoru dissertasiyasına əlavə rəy vermişdir.

## 13. DİSSERTASİYA MÜDAFİƏSİ VƏ İXTİSASLAŞDIRILMIŞ ŞURALARIN FƏALİYYƏTİ

Kafedranın professoru Rəcəbli Ə.Ə. BDU-nun filologiya fakültəsində fəaliyyət göstərən D.02.181 Dissertasiya Şurasının üzvüdür. Həmçinin dos. M.T.Məmmədov və fakültənin humanitar işləri üzrə dekan müavini dos. C.X.Muradov fakültə Elmi Şurasının üzvləridir. Dos. C.X.Muradov D.02.181 Dissertasiya Şurasının nəzdindəki Elmi Seminarın üzvüdür. Həmçinin dos. C.X.Muradov Vəfa Elxan qızı Məmmədovanın 2017-ci il 29 noyabr tarixdə müdafiə etmiş "Müasir Azərbaycan və rus siyasi diskurs dilinin qarşılıqlı təhlili (XX əsrin sonu – XXI əsrin əvvəli) filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının rəsmi opponenti olmuşdur.

## 14. TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRLƏRİN) ELMİ-TƏDQİQAT İŞLƏRİ (KONFRANSDA İŞTİRAKI)

Kafedranın magistr və bakalavr pillələrində oxuyan tələbələr vaxtaşırı «Azərbaycan filologiyasının aktual problemləri» adlı məcmuədə öz elmi məqalələrini çap etdirirlər. Eyni zamanda onların çıxışları, məruzə və tezisləri fakültədə buraxılan digər elmi nəşrlərdə də çap olunur. Kafedra üzrə müdafiə edən magistrlərin aşağıda qeyd olunan məqalələri çap edilmişdir:

1. Nigar Əliyeva. Əbülfəz Rəcəbli və dilçilik tarixi məsələləri. / Müasir türkologiya:dünən, bu gün və sabah (problemlər və perspektivlər). Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş konfransın materialları. Bakı, 18-19 may 2016, s.185-188
2. Telli Səlimli. Prof. Ə.Z.Abdullayev və "Kitabi-Dədə Qorqud" dastanlarında tabeli mürəkkəb cümlələri haqqında. / Müasir türkologiya:dünən, bu gün və sabah (problemlər və perspektivlər). Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş konfransın materialları. Bakı, 2016, s.277-280
3. Nigar Əliyeva. Praqa funksional dilçiliyində fonologiya məsələləri. / Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzüsünda Respublika elmi konfransı. Bakı, 2016,s.417-421.
4. Telli Səlimli. Tabeli mürəkkəb cümlə problemi və prof. Ə.Z.Abdullayev. / Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü üldönümünə həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzüsünda Respublika elmi konfransı. Bakı, 17-18 may 2017,s.444-448
5. Nigar Əliyeva. Prof. Ə.Rəcəblinin dilçilik görüşlərində struktur dilçilik məsələləri. / Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü üldönümünə həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzüsünda Respublika elmi konfransı. Bakı, 17-18 may 2017,s.415-420.

**15. 2017-ci İLDƏ HANSI AVADANLIQLARININ ALINMASINA EHTİYAC DUYULUR:**

Kafedrada tədrisin və elmi–tədqiqat işlərinin yüksək səviyyədə keçirilməsini təşkil etmək üçün kafedranın aşağıdakı texniki avadanlıqla təhcizatına ehtiyac vardır: 2 müəllim stolu və 1 jalyüz.

**16. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR**

Kafedra əməkdaşlarının 1 illik elmi-pedaqoji fəaliyyəti qənaətbəxş hesab oluna bilər. Prof. Ə.Ə.Rəcəblinin 2017-ci il oktyabrın 2-dən rektorun əmri ilə kafedra müdiri təyin olunmuşdur.

"Azərbaycan dili və nitq mədəniyyəti" fənninin BDU-nun bütün fakültələrində, həm də filologiya fakültəsində tədrisini nəzərə alaraq "Nitq mədəniyyətinin nəzəriyyəsi" adlı bir kursun kafedranın tədris planına salınması məqsədəuyğun olardı. "Nitq mədəniyyəti və üslubiyyatın əsasları" fənni "Azərbaycan dilçiliyi" kafedrasından daha çox nəzəri kafedra olan "Ümumi dilçilik" kafedrasının statusuna daxildir. Həmin fənnin tədrisinin "Ümumi dilçilik" kafedrasına həvalə edilməsi məqsədəuyğundur.

**Ümumi dilçilik kafedrasının**
**müdiri:** **prof.Ə.Ə.Rəcəbli**